*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 5 (2025): Winter*

# An Ecological Approach to Child Abuse and Social Protection System Analysis of Trauma Effects and İnternational Practices

[1] **Rəqibə Paşayeva**
https://doi.org/10.69760/gsrh.0250205041

**Abstract:** This article examines child welfare with a specific focus on child abuse and neglect. In the modern era, negligence and exploitation of children remain pressing issues at both national and international levels. From an ecological perspective, children's welfare is shaped by individual, family, and environmental factors, while the increase in risk conditions, the inadequacy of social services, and the long-term impact of trauma highlight the critical role of social work. International practice (Collins & Wright, 2022; Aurino & Giunti, 2022) shows that transforming child protection and social security systems and applying ecological and trauma-informed approaches are essential. This research analyses child abuse and neglect within ecological system theory, evaluates the effectiveness of social protection mechanisms, and, through a comparative review of international evidence (Türkkan, Odacı, & Bülbül, 2021; Akçe & Doğan, 2020; Çavuş & Çalış, 2021; Özkan, 2022), identifies factors affecting children's welfare at the micro, meso, and macro levels. The study combines theoretical and practical perspectives, aiming to build systematic knowledge about the multi-layered determinants of child welfare and to support the improvement of social protection systems, the strengthening of children's rights, and the development of trauma-informed interventions. Overall, the findings underline that ensuring social welfare is both a primary need for children and a key factor in preventing abuse and responding effectively when it occurs.

**Keywords:** *Child abuse, neglect, social protection, social work, ecological approach, trauma-informed intervention, child rights, international experience*

[1] Pashayeva, R. Master's Student, Department of Social and Public Relations, Nakhchivan State University, Azerbaijan. Email: pasayevareqibe8@gmail.com. ORCID: https://orcid.org/0009-0007-7631-2122

*Global Spectrum of Research and Humanities*
*ISSN: 3007-9136*
*Vol. 2 No. 5 (2025): Winter*

# Uşaq İstismarı və Sosial Qoruma Sistemlərinə Ekoloji Yanaşma, Travma Təsirləri və Beynəlxalq Təcrübələrin Təhlili

[1] **Rəqibə Paşayeva**
https://doi.org/10.69760/gsrh.0250205041

**Xülasə:** Bu məqalədə uşaq istismarı və laqeydliyi, həmçinin uşaqların sosial rifahının təmin olunması problemi ekoloji sistem nəzəriyyəsi çərçivəsində araşdırılır. Müasir dövrdə azyaşlı və yeniyetmələrin istismarı və onlara qarşı laqeyd münasibət həm milli, həm də beynəlxalq səviyyədə aktuallıq kəsb edir. Ekoloji yanaşma göstərir ki, uşaqların rifahına fərdi, ailə və ətraf mühit amillərinin təsiri danılmazdır; mövcud problemlərin çoxalması, sosial xidmətlərin yetərsizliyi və travmanın uzunmüddətli nəticələri sosial işin rolunu daha da önə çıxarır.

Beynəlxalq təcrübə (Collins & Wright, 2022; Aurino & Giunti, 2022) uşaq müdafiə sistemlərinin transformasiyasının, ekoloji və travma əsaslı yanaşmaların tətbiqinin zəruri olduğunu vurğulayır. Bu tədqiqatın məqsədi uşaq istismarı və laqeydliyinin səbəblərini ekoloji sistem nəzəriyyəsi əsasında təhlil etmək, sosial qoruma və müdafiə mexanizmlərinin səmərəliliyini qiymətləndirmək və beynəlxalq təcrübəni müqayisə etməklə sosial işin uşaqların rifahının təminində rolunu elmi əsaslarla müəyyənləşdirməkdir.

Tədqiqatda analiz və sintez metodlarından istifadə olunmuş, uşaq sosial müdafiəsi, rifahın təmin olunması və travma əsaslı müdaxilə sahəsində aparılmış tədqiqatlar sistemləşdirilmişdir (Türkkan, Odacı, & Bülbül, 2021; Akçe & Doğan, 2020; Çavuş & Çalış, 2021; Özkan, 2022). Mənbələrin təhlili ekoloji modelin mikro, mezo, ekzo və makro səviyyələrində uşaqların sosial rifahına təsir edən amillərin və sosial müdaxilə strategiyalarının müəyyənləşdirilməsini əhatə edir. Nəzəri baxımdan tədqiqat çoxsəviyyəli amillər və sosial işin rolu haqqında sistemli bilik formalaşdırır, praktiki baxımdan isə sosial müdafiə sistemlərinin təkmilləşdirilməsi, uşaq hüquq və mənafelərinin qorunmasının gücləndirilməsi və travma əsaslı müdaxilə mexanizmlərinin inkişafına töhfə verir.

Ədəbiyyat təhlili göstərir ki, uşaq istismarı və laqeydlik yalnız fərdi və ailədaxili münasibətlərlə məhdudlaşmır, həm də iqtisadi, sosial və hüquqi çatışmazlıqlarla bağlıdır. Sosial işçilərin erkən müdaxiləsi, multidissiplinar yanaşma, travma əsaslı və ekoloji modelə uyğun strategiyalar uşaqların sosial rifahını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Beynəlxalq təcrübələr multidissiplinar müdaxilə, qoruyucu ailə modelləri və media vasitəsilə maarifləndirmənin sosial müdafiə sistemlərinin effektivliyini artırdığını göstərir. Nəticə etibarilə, sosial müdafiə sistemləri uşaq istismarının həm qabaqlanmasında, həm də baş verdiyi hallarda qarşısının alınmasında əsas mexanizmlərdən biri kimi çıxış edir.

**Açar sözlər:** *Uşaq istismarı, laqeydlik,sosial qoruma,ekoloji yanaşma,travma əsaslı müdaxilə, uşaq hüquqları,beynəlxalq təcrübə*

[1] Pashayeva, R. Master's Student, Department of Social and Public Relations, Nakhchivan State University, Azerbaijan. Email: pasayevareqibe8@gmail.com. ORCID: https://orcid.org/0009-0007-7631-2122

**Əsas**

“Uşaq rifahı həm etik, həm də siyasi konteksdə dəyərləndirilməlidir. Sosial işçilər bu balansı qorumaqda əsas fiqurlardır” (Lorraine Fox Harding, *Perspectives in Child Care Policy*).

Bu sitat uşaq rifahının yalnız siyasi və ya sosial çərçivədə deyil, eyni zamanda əxlaqi müstəvidə də nəzərdən keçirilməsinin vacibliyini vurğulayır və bu prosesdə subyekt kimi sosial işçilərin danılmaz rolunu ön plana çıxarır.

Azyaşlılara münasibət və onların mənafelərinin qorunması müasir dövrdə sosial siyasətin və sosial iş praktikasının mərkəzi məsələlərindən biridir. Bu problemin həllinə dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə yanaşı, hüquqi və fiziki şəxslər, eləcə də birbaşa uşaqlarla çalışan sosial işçilər cəlb olunmalıdır. Uşaq istismarı və laqeydlik (ihmal) müasir cəmiyyətlərdə uşaqların sosial rifahını ciddi şəkildə təhdid edən qlobal problemlərdəndir; bu hallar uşaqların fiziki, psixoloji və sosial inkişafına mənfi təsir göstərir, onların hüquqlarının müdafiəsini çətinləşdirir və uzunmüddətli sosial problemlərin yaranmasına səbəb olur (Akçe & Doğan, 2020; Türkkan, Odacı, & Bülbül, 2021).

Azyaşlı uşaqların qeyri-qanuni formada küçələrdə işlədilməsi onların sosial müdafiə sistemlərindən kənarda qalmasına gətirib çıxarır və bu sahədə mövcud siyasət və xidmətlərdə ciddi boşluqların olduğunu açıq şəkildə göstərir (Güngör & Erdurak, 2016). Problemin geniş yayılmasının əsas səbəblərindən biri uşaq istismarına yalnız ailədaxili və ya fərdi aspektdən baxılmasıdır; halbuki bu fenomen həm də iqtisadi, hüquqi və institusional zəifliklərlə sıx bağlıdır (Özkan, 2022).

Uşaqların hüquqlarının qorunması və sosial rifahının təmin olunması sahəsində beynəlxalq təcrübə multidissiplinar müdaxilə, qoruyucu ailə modelləri, travma əsaslı yanaşmalar və maarifləndirmə proqramlarının effektivliyini göstərir (Aurino & Giunti, 2022; Collins & Wright, 2022; Legha & Gordon-Achebe, 2022). Bu məqalənin məqsədi uşaq istismarı və laqeydliyinin səbəblərini ekoloji sistem nəzəriyyəsi çərçivəsində təhlil etmək, sosial qoruma və müdafiə mexanizmlərinin səmərəliliyini qiymətləndirmək, həmçinin milli və beynəlxalq təcrübələri müqayisəli şəkildə araşdırmaqla sosial işin uşaqların rifahının təmin olunmasında rolunu müəyyənləşdirməkdir. Tədqiqatın elmi yeniliyi ekoloji yanaşma və travma əsaslı perspektivi birləşdirərək sosial qoruma sistemlərinin transformasiyası ehtiyacını elmi-təhlili baxımdan ortaya qoymasından ibarətdir.

**Əsas hissə**

Uşaqlar gələcəyin yetirmələri kimi qiymətləndirilir; məhz buna görə onların rifahının təmin olunması və qorunması əslində cəmiyyətin gələcəyinin qorunması deməkdir. Azyaşlıların və yeniyetmələrin istismarı müxtəlif formalarda təzahür edir: fiziki, psixoloji, hüquqi, cinsi istismar və valideynlər tərəfindən laqeyd münasibət bu formaların başlıcalarıdır.

Fiziki istismar uşağın birbaşa və ya dolayı yolla sağlamlığına xətər yetirilməsi ilə, psixoloji istismar isə görünən fiziki zədə olmasa belə, onun özünəinamının azalması, travmatik düşüncələrin

formalaşması və asosial davranışların artması ilə xarakterizə olunur. Bu istismar formaları arasında ən ağırı cinsi istismar hesab edilir; belə ki, cinsi istismar həm fiziki, həm də psixoloji səviyyədə dərin zərər vurur və uşaqda ağır travmatik hisslər, qorxu və utanc yaradır. Cinsi istismarın doğurduğu travmatik xatirələr və uşağın psixikasının həssaslığı nəticə etibarilə uzunmüddətli psixososial müdaxilə və müalicə ehtiyacını zəruri edə bilər.

Laqeydlik (ihmal) isə uşağın geyim, qida, təhsil, tibbi yardım kimi əsas ehtiyaclarının qarşılanmaması ilə özünü göstərir. Küçədə qeyri-qanuni fəaliyyətə cəlb edilən azyaşlılar bu istismar formasının ən görünən nümunələrindəndir; belə uşaqlar faktiki olaraq sosial müdafiə sistemlərindən kənarda qalır və dövlətin uşaq qoruma siyasətində ciddi boşluqların mövcudluğunu üzə çıxarır.

Ekoloji yanaşma uşağın vəziyyətini yalnız fərdi səviyyədə deyil, ailə, icma, institusional və cəmiyyət miqyasında təhlil etməyə imkan verir. Uşaqların erkən yaşlardan istismara məruz qalması onların gələcək həyatlarında ciddi fəsadlarla üzləşmələrinə səbəb olur; buna görə də istismar formalarının vaxtında diaqnostikası və qarşısının alınması üzrə sistemli işlərin aparılması həyati əhəmiyyət kəsb edir. Ekoloji sistem nəzəriyyəsinə əsasən uşaq rifahını aşağıdakı səviyyələr üzrə təhlil etmək mümkündür:

- **Mikro səviyyə:** ailədaxili münasibətlər, valideyn davranışı, psixoloji inkişaf, ailə daxili münaqişələr;
- **Mezo səviyyə:** məktəb, qonşuluq mühiti, sosial xidmətlər, təşkilatlararası və ailə–məktəb əlaqələri;
- **Ekzo səviyyə:** sosial siyasətlər, müdafiə mexanizmləri, yerli idarəetmə və qeyri-hökumət təşkilatlarının fəaliyyəti;
- **Makro səviyyə:** iqtisadi və hüquqi çərçivələr, mədəni dəyərlər, cəmiyyətin uşaqlara və uşaqlıq anlayışına ümumi yanaşması.

Uşaqların rifahı və qorunması prosesi milli və beynəlxalq səviyyədə müxtəlif modellərə əsaslanır. Sosial işçilərin rolu bu modellərdə mərkəzi yer tutur: onlar uşaqların hüquqlarının qorunmasında, travma əsaslı müdaxilələrin həyata keçirilməsində, risk faktorlarının azaldılmasında və müdafiə mexanizmlərinin əlaqələndirilməsində əsas peşəkar fiqurlar hesab olunurlar. Multidissiplinar komanda işinin aktivləşdirilməsi, inklüziv təhsil modellərinin tətbiqi və sosial xidmətlərin koordinasiyası uşaqların rifahının təminində mühüm alətlərdir. Bu prosesə həm təhsil müəssisələrində, həm də digər ictimai mühitlərdə sosial işçilər tərəfindən nəzarət və peşəkar yönləndirmə həyata keçirilməlidir.

Uşaqların istismar və laqeydlik nəticəsində yaşadıqları travmalar onların davranışına, psixoloji vəziyyətinə və sosial inteqrasiyasına uzunmüddətli təsir göstərir. Travmanın nəticələri arasında depressiya, aqressiv və özünəzərərverici davranışlar, sosial izolyasiya, inamsızlıq və gələcəkdə öz övladlarına qarşı laqeyd və ya zorakı münasibət göstərmə meyilləri müşahidə oluna bilər (Yılmaz

& Karaaziz, 2023). Travma əsaslı müdaxilə uşaqların psixososial dəstəklə yanaşı təhlükəsiz və qoruyucu mühitdə böyüməsinə imkan yaradır və onların sağalma prosesini sürətləndirir.

Bu məsələlər həm milli, həm də beynəlxalq aspektdən təhlil oluna bilər. Milli sistemlərdə rast gəlinən əsas çətinliklər sırasında sosial işçilərin say və hazırlıq baxımından yetərsizliyi, resurs çatışmazlığı, peşəkar kadrlara davamlı təlim ehtiyacı, xidmətların koordinasiya problemləri və hüquqi boşluqlar qeyd edilir. Bu çatışmazlıqlar uşaqların hüquqlarının effektiv qorunmasını və müdafiə sistemlərinin səmərəliliyini zəifl ədir (Aurino & Giunti, 2022; Çavuş & Çalış, 2021). Peşəkar və təcrübəli kadrların hazırlanması, sosial işçilər üçün ixtisasartırma təlimləri və seminarların keçirilməsi, həmçinin sahə üzrə ixtisaslaşmış qurumların yaradılması işin gedişatına müsbət təsir göstərir və səmərəliliyi artırır. Azyaşlıların mühafizəsi üzrə ixtisaslaşmış institut və mərkəzlərin peşəkar heyətlə təmin olunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır.

Beynəlxalq prinsiplər sosial müdafiə prosesində transformasiyanın vacibliyini vurğulayır. Transformasiya yalnız hüquqi islahatlarla məhdudlaşmamalı, sosial iş praktikasının gücləndirilməsi, cəmiyyətin məlumatlandırılması, uşaq hüquqları üzrə maarifləndirmə kampaniyaları və resursların ədalətli bölgüsü ilə dəstəklənməlidir. Köklü dəyişikliklər nəticəsində uşaq rifahının qorunması və istismarın qarşısının alınması üçün daha səmərəli və davamlı sistemlər formalaşdırmaq mümkündür.

Uşaq müdafiəsi və mühafizəsi üzrə ədəbiyyatın təhlili göstərir ki, təhlükəsizlik zəif təmin olunduğu və uşaq hüquqlarına etinasız yanaşılan ölkələrdə uşaq əməyinin istismarı xüsusilə geniş yayılmışdır. Uşaqlar cəmiyyətin "zəif halqası" olduqları, həmçinin yoxsulluq və sosial bərabərsizlik dərinləşdiyi üçün az maaşlı, ağır əmək şəraitində istismara daha çox məruz qalırlar. Bu proses xüsusilə qaçqın və miqrant uşaqlar arasında daha tez-tez müşahidə olunur; ağır əmək şəraitinə dözə bilməyən azyaşlıların bəzən həyatlarını itirdikləri də statistikalarda əksini tapır. Mövcud təhlillər göstərir ki, 17 yaşdan aşağı uşaqların əmək fəaliyyəti ilə bağlı hüquqi tənzimləmələr bir çox ölkələrdə yetərli deyil.

Tarix boyu azyaşlılar cəmiyyətin zəif halqası kimi dəfələrlə istismara məruz qalmışlar. Qədim və müasir dövrlərdə müharibələr, ixtişaşlar, zorakılıq halları uşaqların fiziki və psixoloji sarsıntılar yaşamasına səbəb olmuş, bəzi hallarda bu vəziyyət "normal" kimi qəbul edilsə də, nəticədə fərdlərin deformasiyaya uğramış psixologiya ilə formalaşmasına gətirib çıxarmışdır. Sonrakı dövrlərdə uşaqlara təhsildən məhrumetmə, həmyaşıdları ilə kollektiv ünsiyyətdən uzaqlaşdırma, ictimai fəaliyyətlərdən kənar saxlama da istismar formalarından biri kimi qiymətləndirilə bilər.

Cari dövrdə ictimai məkanlarda və onlayn mühitdə bullinq hadisələrinə daha çox rast gəlinir. Bu hallar mobil telefon, sosial media, həmçinin fiziki və psixoloji təzyiq formasında özünü göstərir. Cəmiyyətin xeyrinə istifadə olunmaq üçün yaradılan texnoloji vasitələr bəzən uşaqlar üçün travmatik təsir mənbəyinə çevrilir. Xüsusilə orta məktəblərdə şagirdlərin həmyaşıdları tərəfindən zorakılığa məruz qalması geniş yayılmışdır: zəif özünəinam, sosial dəstəyin azlığı və ailə mühitindəki gərginlik bu uşaqları bullinqin obyekti edir. Eyni zamanda, bullinqi törədən uşaqların

da çox vaxt problemlik ailə mühitində böyüdükləri, laqeyd və zorakı davranış modellərini ailə üzvlərindən öyrəndikləri müşahidə olunur. Bu, həm zorakılığa məruz qalan, həm də zorakılıq edən uşaqlar üçün sağlam ailə və cəmiyyət mühitinin formalaşmadığını göstərir.

Fəaliyyət qabiliyyəti məhdud (xüsusi ehtiyaclı) uşaqların istismarı ayrıca diqqət tələb edən məsələdir. Bəzi cəmiyyətlərdə bu uşaqlar "lazımsız" fərd kimi dəyərləndirilir, kütləvi qınağın obyektinə çevrilir, həm bullinqə məruz qalır, həm də sosial mühitdən təcrid edilirlər. Cəmiyyətdə tez-tez "onlar yalnız özləri kimi uşaqlarla birlikdə oxumalı, oynamalıdır" kimi stereotiplərə rast gəlinir. Halbuki, belə uşaqların təcrid edilməsi deyil, inklüziv təhsil mühitində həmyaşıdları ilə birgə sosiallaşması onların rifahı üçün daha uyğundur və cəmiyyətin humanist dəyərlərini gücləndirir.

Ailə cəmiyyətin təməl institutu kimi uşaq rifahının təminində xüsusi əhəmiyyət daşıyır. Sosial sahə üzrə maarifləndirici proqramlar və valideynlik bacarıqları üzrə təlimlərin təşkili sosial işçilərin əsas öhdəliklərindən biridir. Ekoloji yanaşma nöqteyi-nəzərindən valideyn münasibətlərinə baxdıqda görmək olar ki, bəzən həddən artıq cəza və ya həddən artıq mükafatlandırma uşağın sosial norma və sərhədləri düzgün mənimsəməsinə mane olur. Valideynlik üslubunun balanssız olması uşaqda həm özünə, həm də cəmiyyətə münasibətin təhrif olunmasına gətirib çıxara bilər.

Qeyd olunan problemlərin aradan qaldırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri olmalıdır. Bunun üçün sosial işçi heyəti say və peşəkarlıq baxımından gücləndirilməli, onlar üçün əlavə təhsil, ixtisasartırma və superviziya mexanizmləri təmin edilməlidir. Əgər bu məsələlərə vaxtında və sistemli şəkildə diqqət yetirilməzsə, azyaşlıların istismarı daha da geniş vüsət ala və cəmiyyətin gələcəyi üçün dərin neqativ nəticələr doğura bilər.

**Nəticə**

Uşaqların sağlam və balanslı şəkildə formalaşması cəmiyyətin sosial və iqtisadi inkişaf mexanizminin əsas hərəkətverici amillərindən biri hesab olunur. Məhz buna görə cəmiyyətin təkmilləşdirilməsi, xalqın tərəqqisi və dayanıqlı inkişafı birbaşa uşaqların rifahının təmin olunmasından, onların sülh və əmin-amanlıq şəraitində böyüməsindən asılıdır.

Bu kontekstdə uşaq mühafizəsi üzrə məsul qurumların effektiv fəaliyyəti təmin edilməli, uşaq hüquq və azadlıqlarının qorunması üçün müxtəlif sahələr üzrə xüsusi fondlar və proqramlar yaradılmalı, mövcud strukturlar isə gücləndirilməlidir. Multidissiplinar yanaşmanın tətbiqi – sosial işçilər, psixoloqlar, pedaqoqlar, həkimlər və hüquqşünaslar arasında əməkdaşlığın qurulması – uşaq müdafiə sisteminin səmərəliliyini artıran əsas şərtlərdən biridir.

Azyaşlıların üzləşə biləcəyi risk faktorları sosial müdafiə orqanları və müvafiq fondlar tərəfindən əvvəlcədən müəyyən edilməli, bu risklərin qarşısının alınması üçün preventiv mexanizmlər hazırlanmalı və həyata keçirilməlidir. Travma hallarını tətikləyən sosial, ailəvi və institusional amillərin aradan qaldırılması üçün uşaqlarla psixoloji iş aparmağı bacaran peşəkar kadrların sistemli şəkildə cəlb olunması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, valideynlər uşaq

psixoloqları və sosial işçilərlə mütəmadi əlaqə saxlamalı, övladlarının emosional və psixoloji ehtiyaclarına həssas yanaşmalıdırlar.

Nəticə etibarilə demək olar ki, sosial müdafiə qurumları və sosial işçilər uşaqların rifahının təmin olunmasında, istismar və laqeydliyin qarşısının alınmasında və risk faktorlarının minimuma endirilməsində açar rol oynayan subyektlərdir. Onların peşəkar fəaliyyəti həm ayrı-ayrı uşaqların həyatına, həm də bütövlükdə cəmiyyətin gələcək inkişafına birbaşa təsir göstərir.

**Ədəbiyyat siyahısı**

Akçe, İ., & Doğan, H. (2020). Cinsel istismara maruz kalmış çocuklar üzerine bir değerlendirme. *Sosyal Çalışma Dergisi, 4*(1), 12–20.

Aurino, E., & Giunti, S. (2022). Social protection for child development in crisis: A review of evidence and knowledge gaps. *The World Bank Research Observer, 37*(2), 229–263.

Collins, T. M., & Wright, L. H. V. (2022). The challenges for children's rights in international child protection: Opportunities for transformation. *World Development, 159*, 106032.

Çavuş, F., & Çalış, N. (2021). İhmal ve istismarı önlemeye yönelik çocuk koruma politikalarında uzmanlaşmış koruyucu aile modelinin yeri. *Toplum ve Sosyal Hizmet, 32*(4), 1565–1586.

Güngör, F., & Erdurak, Y. (2016). Çocuk hakları ve uygulama stratejileri bağlamında sokakta çalıştırılan çocuklar. *Yalova Sosyal Bilimler Dergisi, 6*(12), 1–35.

Özkan, G. (2022). Ekolojik sistem yaklaşımı açısından çocuk ihmal ve istismarında bireysel, ailesel ve çevresel risk faktörlerinin değerlendirilmesi. *Uluslararası Sosyal Bilimler Akademi Dergisi, 4*(8), 217–240.

Türkkan, T., Odacı, H., & Bülbül, K. (2021). Çocuk istismarı ve ihmalini anlamak: Ekolojik bir yaklaşım. *Toplum ve Sosyal Hizmet, 32*(2), 709–728.

Yılmaz, Ş. N., & Karaaziz, M. (2023). Şiddet ve saldırgan davranışta çocukluk çağı travmalarının rolü. *MEYAD Akademi, 4*(1), 80–94.

Received: 20.11.2025
Revised: 22.11.2025
Accepted: 08.12.2025
Published: 10.12.2025